Dünya təcrübəsi

# MÜƏLLİM HAZIRLIĞINDA PEDAQOJİ TƏCRÜBƏNİN TƏKMİLLƏŞDİRİLMƏSİNİN YENİ MODELLƏRİ



**Ülviyyə Nağıyeva,**
*Naxçıvan Dövlət Universitetinin dissertantı*
*e-mail: ulviyyenagiyeva921@gmail.com*

**UOT**: 37

**Xülasə.** *Məqalədə Avropa ölkələri, eləcə də Yaponiya, Cənubi Koreya və digər ölkələrdə müəllim hazırlığında pedaqoji təcrübənin yeri və rolundan bəhs edilmişdir. Müəllim hazırlığının vacib mərhələsi pedaqoji təcrübə hesab olunur. Son illərdə pedaqoji təcrübənin daha səmərəli təşkili ilə bağlı axtarışlar aparılır. Müəllim hazırlığında son semestr bütövlükdə pedaqoji təcrübəyə həsr olunur. Pedaqoji təcrübəni təkmilləşdirmək məqsədi ilə inkişaf etmiş ölkələrdə ali pedaqoji məktəb tələbələrinin pedaqoji təcrübəsinin təşkilinin öyrənilməsi çox vacib hesab olunur.*

***Açar sözlər:*** *Avropa, ibtidai sinif müəllimi, peşə, standart, pedaqoji təcrübə.*
***Key words:*** *Europe, primary school teacher, profession, standard, pedagogical practice.*
***Ключевые слова:*** *Европа, учитель начальных классов, профессия, стандарт, педагогическая практика.*

İnkişaf etmiş ölkələrdə müəllim hazırlığına, xüsusilə də ibtidai sinif müəllimi hazırlığına ciddi diqqət yetirilir. İbtidai sinif müəllimlərinin hazırlığı orta və ya natamam ali təhsil müəssisələrində (pedaqoji kollec, normal məktəb, pedaqoji məktəb) həyata keçirilir. Məzmununa görə dəyişən pedaqoji təhsilin müddəti fərqlidir. Belə ki, Danimarka, İtaliya, Norveç və başqa ölkələrdə ibtidai sinif müəllimləri natamam orta məktəb bazasında hazırlanır və təhsil müddəti 4 ildir. İngiltərə, Almaniya, ABŞ, Yaponiya və digər ölkələrdə ibtidai sinif müəllimi tam orta təhsil bazasında hazırlanır ki, burada da təhsil müddəti 2 ildir. Bu gün universitetlərin nəzdində fəaliyyət göstərən pedaqoji kolleclərdə ibtidai sinif müəllimi hazırlığı müddətinin 3-4 ilədək artırılması tendensiyası müşahidə olunur. Bəzi ölkələrdə təhsil müddəti 4 il olan belə kolleclər universitetlərin təhsil fakültələrinə və ya onların filiallarına çevrilir.

**İngiltərədə** ali pedaqoji təhsilin standartlaşdırılmasının əsas istiqamətləri Müəllimlərin Milli Kvalifikasiya standartında öz əksini tapır. Müəllimlərin Milli Kvalifikasiya standartı **3** bölməni əhatə edir: ***peşə keyfiyyətləri; peşə bilik və bacarıqları; peşə vərdişləri.*** Bununla yanaşı, onlar geniş erudisiyası, müxtəlif mənəvi maraqları, yaradıcılıq qabiliyyəti ilə seçilməli, tədris edəcəkləri fənlər üzrə dərin bilik və bacarıqlara, həmçinin pedaqoji fəaliyyətlərini idarə etmək, təlim-tərbiyə prosesində xoş əhval-ruhiyyə yaratmaq bacarığına yiyələnməlidir. Standartda müəllim

hazırlığının proqramı və əsas fənlərin məzmunu da verilmişdir. İngiltərədə ibtidai sinif müəllimləri ümumi və pedaqoji kolleclərdə və universitetlərin pedaqoji fakültələrində hazırlanılır. Ölkədə dövlət və özəl pedaqoji təhsil müəssisələri fəaliyyət göstərir. Universitetlərdə istənilən fakültədə 3 il oxuduqdan sonra birillik pedaqoji hazırlıq keçməklə də müəllim işləmək mümkündür. Pedaqoji kolleclərin müəllim kadrları hazırlığı ilə bağlı vahid proqramları yoxdur. Ümumi tədris yükünün 25%-i pedaqoji fənlərə ayrılır. Gələcək ibtidai sinif müəllimləri 2 il müddətində psixologiya, təhsil fəlsəfəsi, təhsil sosiologiyası, ixtisas fənlərinin metodikası, pedaqogika tarixi, məktəb gigiyenası, məktəbşünaslıq, müqayisəli pedaqogika fənlərini mənimsəməli olurlar. Gənc müəllimlərə hamı müəllimlər (tyutorlar) pedaqoji dəstək olur. Pedaqoji təcrübənin təşkili və keçirilməsinə xüsusi diqqət verilir. Gələcək ibtidai sinif müəllimləri təhkim olunduqları məktəbdə 14 həftə pedaqoji təcrübə keçirlər. Pedaqoji kolleci bitirənlər isə birillik internatura keçməli olurlar.

İngiltərədə müəllim kadrları hazırlığını tənzimləyən digər normativ sənəd Milli Kurikulum hesab edilir ki, buraya da fənn proqramları, təlimin forma və metodları, tədris-metodiki resurslar daxildir [1, s.9-10]. Böyük Britaniyada ali pedaqoji təhsilin standartlaşdırılmasının əsas istiqamətlərindən biri məzunun – gənc müəllimin pedaqoji hazırlığı meyarlarının və peşə kompetensiyalarının müəyyən edilməsidir. Azərbaycanın ümumtəhsil məktəblərindən fərqli olaraq Böyük Britaniyanın müəllim hazırlığında iştirak edən məktəblərin (əməkdaş məktəblərin) üzərinə ciddi məsuliyyət qoyulur. Belə ki, onlar peşəkar müəllim hazırlığına universitetlə birgə cavabdehdirlər. L.P.Puxovskayanın tədqiqatlarına görə, əməkdaş məktəb peşə hazırlığı proqramlarının hazırlanmasında, pedaqoji təcrübənin strukturunun və məzmununun müəyyənləşdirilməsində, ixtisas fənlərinin tədrisi metodlarının və təlim nailiyyətlərinin yoxlanılması üsullarının seçilməsində, tələbələrin praktiki işlərinin qiymətləndirilməsində, gələcək müəllimlərin peşə-pedaqoji hazırlığının yekun nəticəsinin dəyərləndirilməsində və təkmilləşdirmə proqramlarının hazırlanmasında iştirak edirlər [2, s.87].

İngiltərədə müəllim hazırlığı Təhsil Standartları Bürosu və Müəllim Hazırlığı Agentliyi tərəfindən qiymətləndirilir. Gələcək müəllimlərin peşə hazırlığının qiymətləndirilməsi həm daxili, həm də xarici yoxlamaları əhatə etdiyindən müfəttişlər və universitet rəhbərliyi tərəfindən həyata keçirilir.

Son illərdə **Fransada** pedaqoji kadr hazırlığı sisteminin ən mühüm nailiyyəti müəllimlərin peşə hazırlığı ilə bağlı ixtisas standartlarının hazırlanması və tətbiqidir. Universitetlərdə bakalavriatura səviyyəsində müəllim hazırlığına 3 il, universitetlərin nəzdindəki institutlarda isə 2 il vaxt ayrılır. Tədrisin birinci ilində xüsusi və pedaqoji fənlər sahəsində tələbələrin peşə-nəzəri hazırlığı, ikinci tədris ilində isə əldə edilmiş biliklər əsasında sırf praktiki təlimlər keçirilir.

Gələcək ibtidai sinif müəllimləri təhsil müddətində Fransa Təhsil Nazirliyi yanında yaradılan Milli Komissiya tərəfindən təsdiq edilmiş peşə standartları çərçivəsində müəyyən bilik, bacarıq əldə etməli, peşə kompetensiyalarına yiyələnməlidir. Müəllimlərin peşə-pedaqoji hazırlığının məzmununu ümumi təhsil, ixtisas fənləri və psixoloji-pedaqoji fənlərin inteqrasiyasında əldə edilmiş biliklər və onların təcrübədə tətbiqi təşkil edir. V.Laşıxinanın yazdığına görə, Fransada ali pedaqoji təhsil müəssisələrində pedaqoji kadr hazırlığında pedaqoji-psixoloji fənlərin məzmununun müasirləşdirilməsi əsas prioritet hesab olunur [3, s.12-13].

Fransanın müəllim kadrları hazırlayan təhsil müəssisələrində peşə-pedaqoji hazırlığına təhsilin fəlsəfəsi, ümumi pedaqogika, pedaqogika tarixi, təhsilin sosiologiyası, psixologiya fənləri daxildir. Gələcək ibtidai sinif müəllimləri "Müəllimlik ixtisasına giriş" fənni ilə bağlı universitet müəllimlərinin mühazirələrini dinləyirlərsə, pedaqoji təcrübəni məktəb müəllimlərinin rəhbərliyi ilə keçirlər. Universitetdə pedaqoji təcrübəyə 3, məktəblərdə isə 20 həftə vaxt ayrılır.

İbtidai sinif müəllimləri bu fənlərdən əlavə, təhsil sisteminin məktəbəqədər pilləsinin psixopedaqoji problemlərini özündə ehtiva edən inteqrativ "Ana məktəbi" və "Mühacir övladlarının təhsili" kursunu da öyrənirlər. "Ana məktəbi" nəzəri kursunun öyrənilməsi və məktəbəqədər təhsil müəssisələrində gələcək ibtidai sinif müəllimlərinin pedaqoji təcrübə keçməsi fransız ibtidai sinif müəllimlərinin peşə-pedaqoji hazır-

lığının xarakterik xüsusiyyətidir. Belə yanaşmaya nə digər Avropa ölkələrinin, nə də Azərbaycanın müəllim kadrları hazırlığını həyata keçirən ali pedaqoji təhsil müəssisələrində rast gəlmək mümkün deyil. Bu kursun tədrisində gələcək ibtidai sinif müəllimləri məktəbəqədər yaşlı uşaqların yaş və anatomik-fizioloji xüsusiyyətlərini, tərbiyə işinin vacib elementlərini və praktiki istiqamətlərini həyata keçirən "Ana məktəbi"nin özəllikləri və uşaqların məktəbə hazırlığının məzmunu ilə tanış olurlar. Müasir dövrdə Fransada gələcək müəllimlərin pedaqoji-psixoloji hazırlığının məzmunun təkmilləşdirilməsi istiqamətində xeyli işlər görülmüş, ən başlıcası isə müəllim hazırlığının standartları yeniləşdirilmişdir.

**Almaniyada** ibtidai sinif müəllimləri uzun müddət təhsil müddəti 6 semestr (bəzən də 8 semestr) davam edən ali pedaqoji məktəblərdə hazırlanırdı. Formal olaraq ali pedaqoji məktəblər ali təhsil müəssisələri ilə bərabər tutulsa da, əslində "ikinci dərəcəli" ali məktəb olaraq qalırdılar. Müasir dövrdə pedaqoji institutların universitetlərə qoşulması prosesi gedir ki, bu da ölkədə müəllim hazırlığının yeni və mütərəqqi modellərinin yaranmasına səbəb olmuşdur. Ölkədə təhsil sisteminin qeyri-mərkəzləşdirilmiş şəkildə idarə edilməsi səbəbindən universitetlər bu problemi fərqli şəkildə həll etmişdir. Struktur dəyişikliyinə baxmayaraq, Almaniyada müəllim kadrları hazırlığında iki mərhələli təlim dəyişməz olaraq qalır: ***akademik mərhələ, praktiki mərhələ.***

Birinci mərhələ ümumelmi, ixtisas və az da olsa pedaqoji-psixoloji hazırlığı və məktəb təcrübəsini (8 həftə) əhatə edir. Gələcək müəllimlərin peşə hazırlığının ikinci mərhələsi məktəbdə tyutorun (mentorun) rəhbərliyi altında sınaq dərsləri keçməkdən, əsas (ixtisas) fənlərin metodikası ilə bağlı ümumi seminar məşğələlərində iştirakdan, pedaqoji-psixoloji bilikləri pedaqoji təcrübədə tətbiq etməkdən ibarətdir. Bu mərhələ universitetdə imtahanla başa çatan hazırlıq xidməti adlanır. Müəllimlərin məktəbdə praktiki işə hazırlanmasının ikinci mərhələsinin əsas çatışmazlığı L.P.Puxovskayanın qeyd etdiyi kimi, məktəblərin muxtariyyəti və universitetdən ayrı fəaliyyət göstərməsidir ki, bunun da nəticəsində nəzəri və praktiki hazırlıq arasında uçurum yaranır [2, s.112].

Gələcək müəllimlərin nəzəri biliklərinin inkişafında onun fundamentallaşdırılması və pedaqoji-psixoloji fənlərin funksiyasının artırılması tendensiyası müşahidə olunur. İbtidai sinif müəllimləri hazırlığında Hamburq və Hesse universitetlərinin pedaqoji şöbələrinin maraqlı ənənələri vardır. Hər yerdə hazırlıq müddəti, əsasən eynidir. 3 il müddətində tələbələr 1-2 məktəb fənnini və onun tədrisi texnologiyasını mənimsəyir, alman dili, ingilis dili, riyaziyyat, tarix, siyasət, din və pedaqoji biliklərin əsaslarını öyrənirlər. Məktəb təcrübəsi zamanı dərslərin həftə ərzində müşahidəsi, müzakirəsi və dəyərləndirilməsi həyata keçirilir.

**Danimarkada** son illərdə orta məktəb müəllimlərinin sayında azalmalar müşahidə olunur. Bu məqsədlə ölkənin Təhsil Nazirliyi gələcək müəllimlərin hazırlanması üçün xüsusi layihə (kredit transferi proqramı) hazırlayıb. 4 illik təhsili nəzərdə tutan proqram icbari və seçmə fənləri əhatə edir. Əsas və seçmə fənlərə aşağıdakılar daxildir: ***humanitar elmlər*** (danimarka, ingilis, fransız və alman dilləri, tarix, dinşünaslıq); ***sosial elmlər; dəqiq elmlər*** (biologiya, fizika, kimya, coğrafiya, riyaziyyat); ***təbiət elmləri, texnologiya, praktiki fənlər, estetik elmlər*** (təsviri incəsənət, musiqi, dizayn, idman, daxili iqtisadiyyat, metal emalı və ağac emalı). Tələbə təhsil müddətində məcburi olaraq ən azı iki fənn bloku seçməli və onları dörd semestr ərzində öyrənməlidir.

Avropada ali peşə təhsilində islahatların inkişafında müasir yanaşmalar Avropa Kvalifikasiya Çərçivəsinin (2005) və Pedaqoji bacarıqların və kvalifikasiyaların müəyyənləşdirilməsi üzrə ümumi Avropa prinsiplərinin (2006) yaradılmasına, gələcək müəllimlərin peşə hazırlığı üçün ümumi Avropa standartlarının hazırlanmasına, pedaqoji kadr hazırlığını həyata keçirən Milli universitetlərin əməkdaşlığının genişlənməsinə güclü təsir etdi.

Standartlaşdırma prosesi təkcə Avropa Birliyi ölkələri üçün xarakterik deyil. Uzaq Şərq ölkələrində, xüsusilə Yaponiyada müəllim hazırlığı nəzəri kursdan və pedaqoji təcrübədən ibarətdir. Nəzəri kurs **3** blokdan ibarətdir: ***ümumi təhsil bloku; ixtisas fənləri bloku; pedaqoji fənlər bloku.***

**Yaponiyada** müəllimlər universitetlərin pedaqoji fakültələrində, pedaqoji universitetlərdə və ikiillik kolleclərdə hazırlanır. Təhsil müəssisələrinə daxil olmaq istəyənlər iki səviyyəli sınaq imtahanı verməli olurlar. Birinci imtahan dövlət səviyyəsində, ikinci imtahan ali məktəblər səviyyəsində keçirilir. Universitetlərin pedaqoji fakültələrini bitirənlər, habelə pedaqoji-psixoloji fənləri mənimsəməsi ilə bağlı sertifikatı olanlar müəllim işləyə bilərlər. Belə sertifikatlar müvəqqəti və daimi ola bilər. Daimi sertifikatların sahibləri ölkənin istənilən bölgəsində müəllim işləmək hüququna malikdirlər. Müddətli sertifikatların sahibləri isə yalnız sertifikatın verildiyi bölgədə, müəyyən müddət ərzində müəllim köməkçisi kimi fəaliyyət göstərə bilərlər. Yaponiyada uşaq bağçasında və ibtidai siniflərdə müəllim olmaq üçün ümumi müəllimlik sertifikatı tələb olunduğu halda, orta məktəblər və kolleclərdə müəyyən bir sahə üzrə də sertifikat tələb edilir. Hazırlıq səviyyələrindən asılı olaraq sertifikatlar bir-birindən fərqlənir. Magistraturanı bitirənlərə ümumtəhsil məktəblərində işləmək üçün birinci dərəcəli müəllim sertifikatı verilir. Universitetlərin pedaqoji fakültəsini bitirmək üçün tələbələr 124-159 kredit toplamalı olurlar. Fənn müəllimləri iki fəndən dərs demək üçün hesabla 160-180 və ən çoxu isə 200 kredit toplayırlar.

Yaponiyada gələcək müəllimlər ildə üç dəfə əvvəlcə imtahandan, sonra müsahibədən keçir və praktiki tapşırıqları yerinə yetirirlər. Təhsili uğurla başa vurduqdan sonra tələbələr 6 aylıq pedaqoji təcrübəyə göndərilirlər. Pedaqoji təcrübəni də uğurla başa vurduqdan sonra onlara müəllim işləmək hüququ verilir. Müəllim hazırlığının keyfiyyətinin yüksəldilməsi istiqamətində mütəmadi olaraq islahatlar aparılır. Müəllimlərin fəaliyyətinin sertifikatlaşdırılması həm gənc, həm də təcrübəli müəllimlərdən xüsusi hazırlıqlı olmağı tələb edir. Yaponiyada müəllimlik peşəsi yüksək prestijli peşələrdən hesab olunur. T.L.Pavlovanın tədqiqatlarına görə, Yaponiyada müəllimlik peşəsi 82 peşə arasında 9-cu yeri tutur [4, s.152].

Müəllim işləmək istəyən universitet məzunları xüsusi imtahan verməlidirlər. Xüsusi komissiyanın iştirakı ilə imtahan verən iddiaçı əvvəlcə xüsusi test tapşırıqlarını icra etməli olur. Müəllimlər yüksək dərəcə almaq üçün müəyyən iş stajına və diploma malik olmalıdır. Staj nə qədər çox, diplomun səviyyəsi nə qədər yüksək, iddiaçının təhsil müddətində topladığı kredit nə qədər yüksək olarsa, müəllimin statusu və əməkhaqqı da o qədər yüksək olar.

Pedaqoji fənlər blokuna müəllimlik ixtisasına giriş, sosial psixologiyaya giriş, məktəb təhsilinin tarixi (pedaqogika tarixi), təhsil sistemi, təhsilin məzmunu, tərbiyənin metod və prinsipləri, əxlaqi tərbiyə, tərbiyənin prinsipləri, məktəbin idarə edilməsi, pedaqoji psixologiya, məktəb psixologiyası, yaş psixologiyası, şəxsiyyət psixologiyası, pedaqoji fəaliyyətin məzmunu, ixtisas fənlərinin tədrisi metodikası, xarici pedaqogika, təlim psixologiyası, tədrisin psixologiyası və s. daxildir.

Pedaqoji təcrübənin məzmunu məktəblə tanışlıq, dərslərdə iştirak, sınaq dərsləri demək və tərbiyəvi tədbirlər təşkil etməkdən ibarətdir. Pedaqoji təcrübə yalnız məktəblərdə deyil, həm də sosial müəssisələrdə həyata keçirilir. Tələbələr burada yaşlı və xəstə insanlara, sağlamlıq imkanları məhdud olan uşaqlara xidmət edir, onlara qayğı göstərirlər. Lakin pedaqoji təcrübəyə ayrılan kreditlərin sayı 2-4 kredit təşkil edir ki, bu da Azərbaycanın ali məktəbləri ilə müqayisədə (Azərbaycanda gələcək müəllimlərin pedaqoji təcrübəsi üçün 30 kredit nəzərdə tutulub) xeyli azdır. Yaponiyada müəllim hazırlığındakı boşluqları aradan qaldırmaq üçün pedaqoji fəaliyyətə yeni başlayan müəllimlər üçün xüsusi proqram [5, s.10] tətbiq edilmişdir.

**Rusiyada** ibtidai sinif müəllimləri pedaqoji məktəb, pedaqoji kolleclərdə (1-3 illik), pedaqoji institut və universitetlərin pedaqoji fakültələrində, orta məktəb müəllimləri isə bir qayda olaraq pedaqoji təmayüllü institutlarda və universitetlərin pedaqoji fakültələrində hazırlanır. Müəllim hazırlığı proqramları **2** blokdan ibarətdir: ***birinci bloka*** ixtisasa aid fənlər (fakültənin profilinə uyğun olaraq) daxildir; ***ikinci bloka*** pedaqoji-psixoloji fənlər (pedaqogika, ibtidai təhsilin pedaqogikası, psixologiya, pedaqogika tarixi, müqayisəli pedaqogika, ixtisas fənlərinin metodikası və pedaqoji təcrübə) daxildir. F.Rüstəmovun fikrincə, burada pedaqoji hazırlıq ***ümumi, xüsusi və fərdi qaydada*** [6, s.661] həyata

keçirilir.

***Ümumi hazırlıq*** pedaqoji-psixoloji fənlərin tədrisində gələcək ibtidai sinif müəllimlərində pedaqoji bilik, bacarıq və vərdişlərin formalaşdırılmasını nəzərdə tutur. ***Xüsusi hazırlıq*** seçmə fənlər vasitəsilə gələcək müəllimlərdə peşə kompetensiyalarının formalaşdırılmasını həyata keçirir. ***Fərdi hazırlıq*** isə gələcək müəllimlərin yaradıcı fəaliyyətinin inkişafını təmin edir.

Müəllim hazırlığına ayrı-ayrı ölkələr tərəfindən xüsusi diqqət yetirilməsi təhsilin keyfiyyətinə qoyulan sərmayədir. Məhz müəllim öz məsuliyyəti, əməksevərliyi, vətənpərvərliyi ilə məktəbli şəxsiyyətinin formalaşmasına böyük töhfələr verir. Odur ki, Sinqapur, Finlandiya, Cənubi Koreya, Çin Xalq Respublikası və Türkiyə kimi ölkələrdə müəllim hazırlığına xüsusi diqqət yetirilir. Çünki dünya ölkələri əldə etdikləri bütün nailiyyətlərinə görə müəllimlərə borcludur.

**Türkiyədə** ibtidai sinif müəllimləri universitetlərin təhsil fakültələrində hazırlanır. Təhsil müddəti 4 il olmaqla təhsil müddətində tələbələr 3 dəfə (140 saat) pedaqoji təcrübədə olurlar. Gələcək ibtidai sinif müəllimləri I tədris ilinin 2-ci semestrində 14 həftə müddətində hər gün 2 saat məktəbdə, 2 saat isə universitetin özündə təcrübə keçirlər. Tələbələr 2-ci təcrübəyə III tədris ilinin 2-ci semestrində gedirlər. Gələcək ibtidai sinif müəllimləri yenə də 14 həftə məktəbdə (hər gün cəmi 2 saat) və universitetdə təcrübə keçirlər. Son təcrübə IV tədris ilinin 2-ci semestrində təşkil olunur. Bu təcrübə müddəti də 14 həftədir. Onlar 14 həftə ərzində məktəbdə 6 saat, universitetdə 2 saat pedaqoji təcrübə keçirlər. Hər bir universitetin istənilən məktəblə əməkdaşlıq etmək hüququ vardır.

Xarici ölkələrdə gələcək ibtidai sinif müəllimlərinin peşə hazırlığının standartlaşdırılması prosesi aşağıdakı ümumi tendensiyalara malikdir:

*– ibtidai sinif müəllimi hazırlığında pedaqoji kolleclərin payının azaldılması, kolleclərin universitetlərə qoşulması və ya universitetlərin pedaqoji fakültələrinə çevrilməsi;*

*– pedaqoji-psixoloji hazırlığın məzmununun yeniləşdirilməsi, onun pedaqoji təcrübə ilə əlaqələndirilməsi;*

*– pedaqoji kolleclərdə təlim müddətinin artırılması;*

*– Avropa İttifaqı ölkələrində iki mərhələli (bakalavr və magistr) kadr hazırlığı sistemi.*

Xarici ölkələrdə müəllim hazırlığında müəyyən eyniliklər olsa da, fərqlər də vardır. Belə ki, bəzi ölkələrdə ibtidai sinif müəllimi hazırlığına 3, bəzi ölkələrdə 4 il vaxt ayrılır. Ayrı-ayrı ölkələrin ibtidai sinif müəllimliyi ixtisasının tədris planında və fənlərin məzmununda fərqlər nəzərə çarpır. Xarici ölkələrdə müəllim kadrları hazırlığı ilə bağlı təcrübədən bəhs edərkən bir məsələyə diqqət yetirmək istəyərdik. Belə ki, xarici ölkələrdə təhsilin, o cümlədən pedaqoji təhsilin "bilik iqtisadiyyatı"nda, insan kapitalının yaradılmasında və davamlı şəxsiyyət inkişafında əhəmiyyətli rol oynadığı bildirilir. M.Mahmudovun fikrincə, Yaponiya, ABŞ, Finlandiya, Cənubi Koreya, Sinqapur və başqa inkişaf etmiş ölkələrdə təhsil inkişafa təsir edən amillər içərisində xüsusi yer tutur və təxminən 70 faizə bərabərdir [7, s.143].

**Nəticə.** Beləliklə, xarici ölkələrdə gələcək ibtidai sinif müəllimlərinin hazırlığı ilə bağlı həyata keçirilən tədbirlərin müqayisəli şəkildə təhlili onu göstərir ki, müəllim hazırlığı ilə bağlı vahid standartların formalaşdırılması istiqamətində səylər birləşdirilməlidir.

## ƏDƏBİYYAT

1. Полищук Л.П. Профессиональная подготовка учителей начальной школы Англии в условиях евроинтеграции: (автореф. дис. канд. пед. наук), Житомир, 2011, 21 с.

2. Пуховская Л.П. Профессиональная подготовка учителей в Западная Европа: общность и происхождение. / К.: Высшая школа, 1997, 170 с.

3. Лащыхина В. Университетские институты подготовки учителей – новая форма профессиональной подготовки учителей Франции. Гуманизация учебно-воспитательного процесса: научн метод. сб.; под общ. ред. В.I. Сипченко. Словянск: СГПУ, 2009, с. 39-47.

4. Павлова Т.Л. Профессионализм учителя японской школы: пути становления. Академический вестник института педагогического образования и образования взрослых «Человек и образование». Москва, 2014, №4 (41), с. 152-155.

5. Озерская О.Ю. Профессиональная подготовка учителей в высших учебных заведениях Японии. (автореф.канд. пед. наук), Харьков, 2006, 22 с.

6. Rüstəmov F.A. Pedaqogika tarixi. Bakı, Elm və təhsil, 2016, 748 səh.

7. Mahmudov M. Ali təhsildə innovasiya və modernləşmə: problemlər, perspektivlər və reallıqlar. Azərbaycan Respublikasının Təhsil İnstitutu, Elmi əsərlər. Bakı, cild 85, №6, 2018, səh.13-19.

U.Naghiyeva

## New models of improving pedagogical practice in teacher training

**Abstract**

The article discusses the place and role of pedagogical practice in the training of teachers in Europe, Japan, South Korea and other countries.

An important stage of teacher training is pedagogical practice. In the following years, research on more effective organization of pedagogical practice will be conducted. The last semester of teacher training is fully dedicated to pedagogical practice. In order to improve pedagogical practice, it is very important to study the organization of pedagogical practice of students of pedagogical universities in developed countries.

У.Нагиева

## Новые модели совершенствования педагогической практики в подготовке учителей

**Аннотация**

В статье говорится о месте и роли педагогической практики в подготовке учителей в странах Европы, Японии, Южной Кореи и других странах.

Важным этапом подготовки учителя является педагогическая практика. В последние годы проводятся исследования по более эффективной организации педагогической практики. Последний семестр подготовки учителей полностью посвящен педагогической практике. В целях совершенствования педагогической практики очень важно изучение организации педагогической практики студентов педагогических вузов развитых стран.